**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İQTİSADİYYATIN DİVERSİFİKASİYASI VƏ ONUN MALİYYƏ SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

İxtisas: 5301.01 – «Daxili fiskal siyasət və dövlət maliyyəsi»

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Orxan Mübariz Oğlu Bağırov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiya işinin
**AVTOREFERATI**

**B A K I - 2021**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə və maliyyə institutları" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmlər doktoru, **professor**
**Damət Abbas oğlu Bağırov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Zahid Fərrux oğlu Məmmədov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Azim Heydər oğlu Abasov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Müseyib Fayaz oğlu Əliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:** ____________ İmza iqtisad elmləri doktoru, professor
/**Ədalət Cəlal oğlu Muradov**

**Dissertasiya şurasının elmi katibi:** ____________ İmza iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Zöhrab Həsən oğlu İbrahimov**

**Elmi seminarın sədri:** ____________ İmza iqtisad elmləri doktoru, professor
**Zahid Fərrux oğlu Məmmədov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Dünya ölkələrinin iqtisadi inkişaf tarixi göstərir ki, diversifikasiya iqtisadiyyatın daha da canlanmasına, onun dinamik inkişaf etməsinə, dayanıqlığının artırılmasına, güclənməsinə, davamlılığın təmin edilməsinə təsir edən bir amil kimi çıxış edir. Xüsusilə də ölkə iqtisadiyyatında böhran vəziyyəti olduqda diversifikasiya bu vəziyyətdən çıxış yollarından biri kimi istifadə edilir.

Eyni zamanda diversifikasiya iqtisadiyyatın birtərəfli inkişafından xilas olmağa, sahələrin biri-biri ilə əlaqəli surətdə inkişaf etməsinə və son nəticədə səmərəliliyin yüksəldilməsinə səbəb olur. Diversifikasiyanın uğurla tətbiq olunduğu halda iqtisadiyyatda inkişaf edən sahə və sektorların sayı artır. Ümumi daxili məhsulda bu sahələrin xüsusi çəkisi yüksəlir, iqtisadiyyatın strukturu dəyişməklə daha etibarlı idarəetmə və istehsal mexanizmi yaranır. Bu keyfiyyətlərin, parametrlərin nəzərə alınmasını əsas götürərək demək olar ki, diversifikasiya iqtisadiyyatın inkişafının və ya iqtisadi inkişafa dəstəyin ən səmərəli istiqamətlərindən biri olmaqla dünya təcrübəsində ən geniş yayılmış vasitə kimi istifadə edilir.

Son illərdə Azərbaycan iqtisadiyyatında baş verən keyfiyyət dəyişiklikləri də məhz iqtisadiyyatın diversifikasiyası nəticəsində reallaşa bilmişdir. Bu prosesin geniş şəkildə ölkəmizdə tətbiq olunması və onun elmi əsaslara və geniş qabaqcıl dünya təcrübəsinə söykənməsi onu ölkəmizdə aparılan iqtisadi siyasətin əsas strateji bazasına çevirmişdir.

Diversifikasiya siyasəti ölkə daxilində istehsal edilən və əhaliyə daxili bazara təklif edilən, eyni zamanda xarici bazarlara çıxarılan məhsul və xidmətlərin çoxçeşidliyinin təmin edilməsini nəzərdə tutur və reallaşdırır ki, bunun nəticəsində iqtisadiyyat sürətlə inkişaf edir. Qeyd edilənləri nəzərə alaraq demək olar ki, iqtisadiyyatın diversifikasiyası və onunla bağlı olan bütün inkişaf parametrləri bu gün həm dünya ölkələri üçün, həm də Azərbaycan iqtisadiyyatı üçün çox vacib və aktual problemlərdən biridir. Bu siyasətin, yəni diversifikasiya siyasətinin ən mühüm vəzifəsi və göstəricilərindən biri əldə edilən maliyyə səmərəliliyinin, onun səviyyəsinin yüksəldilməsidir.

İqtisadiyyatın diversifikasiyası nəticəsində əldə olunmuş səmərə nə qədər yüksək olarsa, iqtisadiyyat bir o qədər diversifikasiya olunmuş sayılır və həmin iqtisadiyyat bir o qədər də dinamik olaraq inkişaf edə bilir.

Son illərdə dünya neft bazarında baş vermiş hadisələr Azərbaycanda da aparılan iqtisadi siyasətdə köklü dəyişikliklərin həyata keçirilməsinə səbəb oldu. 2014-cü ildə ölkə prezidenti cənab İlham Əliyev Azərbaycanda postneft dövrünün başlandığını bəyan etdi. Bununla da ölkəmizdə aparılan iqtisadi siyasətdə neftdən asılılığın azaldılması məqsədilə iqtisadiyyatın diversifikasiyası prioritet elan edildi. 2016-cı ildə dekabr ayında Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" fərman imzaladı. Bu fərmanla ölkə iqtisadiyyatının yaxın, orta və uzunmüddətli dövr üçün inkişafının hədəf və prioritetləri müəyyənləşdirildi. Əsas hədəf iqtisadiyyatın yüksək və səmərəli diversifikasiyasına nail olmaq və neftdən asılılığını ləğv etməkdən ibarətdir. Bunun nəticəsində dövlət gəlirlərinin formalaşmasında qeyri-neft sektorunun payının artırılması əsas məqsəd kimi həyata keçirilməlidir.

Qeyd olunanları əsas götürərək demək olar ki, iqtisadiyyatın diversifikasiyası və onun maliyyə səmərəliliyinin yüksəldilməsi bu gün həm ölkə iqtisadiyyatı üçün, həm də tədqiqatçılar və alimlər üçün günün aktual problemi kimi qarşıda durur.

**Problemin öyrənilmə səviyyəsi.** İqtisadiyyatın diversifikasiyası, onun yaranma zərurəti, təşkili və idarə edilməsi, prosesin tənzimlənməsi və iqtisadiyyata təsirinin zəruri elementləri, onların nəzəri və metodoloji aspektləri həm xarici, həm də Azərbaycan alimlərinin tədqiqat əsərlərində araşdırılmışdır.

Azərbaycan iqtisad məktəbinin nümayəndələri olan Z.Səmədzadənin, A.Musayevin, D.Bağırovun, A.Şəkərəliyevin, Ə.Ələkbərovun, Z.Məmmədovun, Q.Manafovun, İ.Kərimlinin, Ə.Babayevin, K.Şahbazovun, Ə.Əlirzayevin, Y.Kəlbiyevin, F.Mustafayevin, Ü.Əliyevin, E.Sadıqovun və başqalarının əsər və tədqiqatlarında ölkə iqtisadiyyatının ayrı-ayrı sektor və sahələrinin müxtəlif parametrlərinin inkişafına dair tədqiqatları bu sahədə diqqəti cəlb edir.

Amerika və Avropa iqtisad məktəbinin nümayəndələri olan M.P.Todaro, C.S.Stephen, K.Qlezakos, O.Kadot, C.Karrere, M.R.Aqosin, F.M.Şherer, F.Haçman, Q.Xuefenq, R.Alvarez, O.C.Bravo, G.E.Maklauhlin, A.Ridvan, A.Jefrey, B.H.Hammouda, S.N.Karingi və başqaları iqtisadi diversifikasiyanın çoxsaylı aspektlərinə, onun məzmun

və əhəmiyyətinə, təşkili prinsiplərinə, ixracın üstünlüklərinə, onun iqtisadi dinamikaya təsirinə, ixracın sabitliyi və dəyişkənliyi məsələlərinə, diversifikasiya mühitinin yaranması və onun düzgün təşkili problemlərinə, diversifikasiya şəraitində investisiya problemlərinə və s. aid əsərlər yaratmışlar.

Bunlarla yanaşı diversifikasiyanın çoxsaylı problemlərinə dair rus alimlərinin də tədqiqatlarına rast gəlinir. Həmin alimlərə Şatalov M.A., Nikolay S.A., Qitman M.B., Mıçka S.Y., Kuslan A.A., Aleksandr M.B., Vodenko K.B., Kolleqov A.K., Baskov İ.S., Şvakov E.E., Qurova İ.P., Kovalenko M.Q., Çayka B., Nikita O.A., Uskova T.V., Bayko İ.V., Darovskix E.V. və sairələri aid edilə bilər.

Yuxarıda qeyd edilən həm Azərbaycan, həm də xarici ölkə alimləri tərəfindən yaradılmış əsərlər yüksək nəzəri, metodoloji və təcrübi əhəmiyyətə malik olmaqla yanaşı qeyd etmək lazımdır ki, ölkəmizdə aparılan iqtisadi diversifikasiya və onun maliyyə nəticələrinin səmərəliliyi məsələləri indiyədək tədqiq olunmamışdır. Elə bu səbəbdən də iqtisadiyyatın diversifikasiyasının maliyyə səmərəliliyinin qiymətləndirilməsi tərəfimizdən tədqiqatda məqsəd kimi qarşıya qoyulmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan Respublikasının iqtisadi inkişafında strateji istiqamət kimi istifadə edilən diversifikasiyanın maliyyə səmərəliliyinin qiymətləndirilməsindən, diversifikasiyanın daha da təkmilləşdirilməsindən və onun səviyyəsinin yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün tədqiqat işində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- iqtisadi dinamikanı təmin edən amil kimi çıxış edən diversifikasiyanın məzmun və mahiyyətinin aşkara çıxarılması və ölkə iqtisadiyyatının inkişafında onun rolunun və maliyyə səmərəliliyinin əsas parametrlər üzrə əsaslandırılması;
- iqtisadiyyatın diversifikasiyasının nəzəri əsaslarının tədqiq edilməsi, təhlillər əsasında ona münasibət bildirilməsi və təkliflər verilməsi;
- iqtisadiyyatın diversifikasiyasının maliyyə səmərəliliyinin dünya təcrübəsinin müxtəlif diversifikasiya modellərinə malik olan ölkələr timsalında öyrənilməsi;

- ölkəmizdə iqtisadiyyatın diversifikasiyası istiqamətində həyata keçirilən islahatların maliyyə səmərəliliyinin müasir vəziyyətinin təhlil edilməsi;

- ölkədə aparılan iqtisadi diversifikasiyanın ayrı-ayrı sektor və sahələr üzrə maliyyə nəticələrinin müasir vəziyyətinin təhlili;

- iqtisadiyyatda reallaşdırılan diversifikasiya səviyyəsinin və onun nəticə göstəricisi olan maliyyə səmərəliliyinin qiymətləndirilməsi;

- zəngin təcrübəyə malik olan ölkələrin diversifikasiya modellərinin və onların qabaqcıl təcrübəsinin Azərbaycanda tətbiqi imkanlarının araşdırılması;

- iqtisadiyyatın diversifikasiyasının maliyyə mənbələrinin müəyyən edilməsi;

- ölkə iqtisadiyyatının müasir şəraitində diversifikasiyanın maliyyə səmərəliliyinin səviyyəsinin yüksəldilməsi istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın obyekti**. Tədqiqatın obyekti olaraq Azərbaycan Respublikasının iqtisadiyyatı və onda reallaşdırılan diversikasiyasının maliyyə məsələləri və mexanizmləri seçilmişdir.

**Tədqiqatın predmeti** ölkəmizdə həyata keçirilən iqtisadiyyatın diversifikasiyasının müasir vəziyyətinin təhlili, maliyyə səmərəliliyinin qiymətləndirilməsi, onun sosial-iqtisadi meyilləri, qanunauyğunluqları, onun rolunu şərtləndirən amillərin aşkarlanmasını müəyyən edən üsul, qayda, vasitələrin ümumi məcmusundan və bu fonda formalaşan iqtisadi münasibətlərdən ibarətdir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları**nı Azərbaycan və xarici ölkə alimlərinin iqtisadi diversifikasiyasının təşkilinin, idarə edilməsinin, tənzimlənməsinin proqram məqsədli yanaşmanın nəzəri və təcrübi məsələlərinə dair tədqiqatları, Milli Məclis tərəfindən qəbul olunmuş qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış və təsdiq edilmiş metodoloji, normativ aktlar və məlumatlar, Mərkəzi Bankın hesabat göstəriciləri təşkil edir.

Tədqiqat prosesində sistemli-kompleks, pozitiv-praqmatik, statistik, qruplaşdırma, ümumiləşdirmə, müqayisəli təhlil, müqayisə, sintez, balans və digər tədqiqat üsullarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Mərkəzi Bankının, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatları, illik hesabat göstəriciləri, həmçinin iqtisadi diversifikasiya prosesini tənzimləyən qanunvericilik və normativ aktlar, monoqrafik tədqiqatlar, müxtəlif səviyyəli elmi-nəzəri və elmi-praktik konfrans materialları, şəxsi müşahidə materialları və internet resursları təşkil edir.

**Dissertasiyanın müdafiəyə çıxarılan əsas müddəaları.** Müdafiəyə yeni, yaxud yenilikçilik elementlərini ehtiva edən aşağıdakı əsas müddəalar çıxarılır:

- Ölkə iqtisadiyyatında aparılan iqtisadi diversifikasiyanın mövcud xarakterini, onun iqtisadi mahiyyətini və mənasını, iqtisadi inkişafdakı rolunu əks etdirən mühüm amillər sistemi;
- İqtisadi diversifikasiyanın mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və onun ən mühüm parametrlərinin Azərbaycan iqtisadiyyatında tətbiqi imkanlarının müəyyən edilməsi;
- İqtisadi inkişafda dinamikanın davamlı sürətdə təmin edilməsi məqsədilə diversifikasiya istiqamətində aparılan islahatların əsas parametr və məqsədlərinin müəyyən edilməsi və onun müasir vəziyyətinin təhlili;
- Azərbaycanda aparılan iqtisadi diversifikasiyanın maliyyə səmərəliliyinin ən mühüm göstəricilər əsasında qiymətləndirilməsi;
- İqtisadi inkişafın strateji məqsədləri istiqamətində iqtisadi diversifikasiyanın maliyyə səmərəliliyinin daha da yüksəldilməsi yolları.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan** ibarətdir:

- Tədqiqatda müxtəlif ölkə alimlərinin yanaşma və baxışları əsasında iqtisadiyyatın diversifikasiyasının əhəmiyyəti və iqtisadi inkişafda rolu araşdırılmış, onun zəruriliyi əsaslandırılmışdır.
- Ölkə iqtisadiyyatında sabit, dinamik, davamlı inkişafın təmin edilməsində iqtisadiyyatın diversifikasiyasının nəzəri əsasları tədqiq olunmuş, onun təşkili prinsipləri müəyyənləşdirilmiş, konseptual yanaşma əsasında metodoloji əsasları təhlil edilmiş, dünya təcrübəsi öyrənilmiş, onun təkmilləşdirilməsi istiqamətində təkliflər verilmişdir.
- Aparılmış geniş təhlillər nəticəsində ölkə iqtisadiyyatının diversifikasiyası istiqamətində reallaşdırılmış islahatların və diversifikasiya prosesinin müasir vəziyyəti geniş təhlil edilmiş, onun

təkmilləşdirilməsi istiqamətində təkliflər irəli sürülmüşdür.

- İqtisadiyyatın sektor və sahələri üzrə diversifikasiya səviyyəsi qiymətləndirilərkən hesablamalar nəticəsində həmin sahə və sektorlarda təmərküzləşmə səviyyəsi müəyyən edilmiş və onun səviyyəsinin yüksəldilməsi istiqamətində təkliflər verilmişdir.

- İqtisadiyyatın ayrı-ayrı sektor və sahələrinin göstəriciləri əsasında diversifikasiya səviyyəsinin və onun maliyyə səmərəliliyinin qiymətləndirilməsi həyata keçirilmiş, səmərəlilik səviyyəsinin yüksəldilməsinin əsas istiqamətləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiya üzrə aparılan tədqiqat nəticəsində sistemləşdirilən nəzəri-konseptual müddəalar, irəli sürülən təklif və tövsiyələr respublikamızda iqtisadi diversifikasiyanın daha da inkişaf etdirilməsi, tənzimlənməsi, təkmilləşdirilməsi istiqamətində tətbiq oluna biləcək proqram və proqnozların hazırlanmasında geniş istifadə edilə bilər.

Bununla yanaşı tədqiqatın materialları həm bakalavr, həm də magistr səviyyəsində təhsil alan tələbələr üçün tədris prosesində əyani vəsait kimi istifadə edilə bilər.

**Dissertasiya işinin elmi nəticələrinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın nəticələri və əsas nəzəri müddəaları 2015-2018-ci illər ərzində beynəlxalq və respublika əhəmiyyətli konfrans, simpozium və seminarlarda məruzə olunaraq müzakirə edilmişdir.

Dissertasiya işinin məzmunundan irəli gələn nəticə və tövsiyyələr Azərbaycan Respublikası Ticarət və Sənaye Palatasının xarici-iqtisadi əlaqələrinin genişləndirilməsi işlərində istifadə olunmaq üçün qəbul edilmişdir (16.11.2018-ci il tarixli Arayış №7100-3/92)

**Tədqiqat nəticəsində dərc olunmuş materiallar.** Tədqiqat nəticəsində dissertasiya işi üzrə 7,6 çap vərəqi olmaqla 12 adda elmi məqalə və tezislər çap olunmuşdur.

**Tədqiqat işinin həcmi və quruluşu.** Dissertasiya işi giriş (11830 işarə), 3 fəsil (I fəsil – 81252 işarə, II fəsil – 126768, III fəsil – 42829 işarə), nəticə (13115 işarə) və ədəbiyyat siyahısından ibarət olmaqla 1,5 intervalla kompüter yazısında 153 səhifəni (275794 işarə) əhatə etməklə 15 cədvəl, 14 qrafiki özündə birləşdirir. Ədəbiyyat siyahısı 137 mənbədən ibarətdir.

**Dissertasiya işinin məndəricatı**

**Giriş**

**I Fəsil. İqtisadiyyatin diversifikasiyasının nəzəri-metodoloji əsasları**

1.1. İqtisadiyyatın diversifikasiyasının mahiyyəti

1.2. İqtisadiyyatın diversifikasiyasının əhəmiyyəti və iqtisadiyyatda rolu

1.3. İqtisadiyyatın diversifikasiyasının dünya təcrübəsi

**II Fəsil. Azərbaycan iqtisadiyyatının diversifikasiyası və onun maliyyə səmərəliliyi**

2.1.Azərbaycanda iqtisadiyyatın diversifikasiyası istiqamətində həyata keçirilmiş islahatlar və diversifikasiyasının müasir vəziyyəti

2.2. İqtisadi diversifikasiyanın dünya təcrübəsinin Azərbaycanda tətbiqi imkanları

2.3. Azərbaycan iqtisadiyyatının diversifikasiyasının maliyyə səmərəliliyinin qiymətləndirilməsi

**III Fəsil. Azərbaycan iqtisadiyyatının diversifikasiyasının maliyyə səmərəliliyinin yüksəldilməsi istiqamətləri**

3.1. Diversifikasiyanın maliyyə səmərəliliyinin yüksəldilməsinin maliyyə mənbələrinin müəyyənləşdirilməsi

3.2. İqtisadi diversifikasiyanın maliyyə səmərəliliyinin səviyyəsinin yüksəldilməsinin əsas istiqamətləri

**Nəticə**

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

## MÜDAFİƏYƏ ÇIXARILAN ƏSAS ELMİ MÜDDƏALAR

**1. Ölkə iqtisadiyyatında aparılan iqtisadi diversifikasiyanın mövcud xarakterini, onun iqtisadi mahiyyətini və mənasını, iqtisadi inkişafdakı rolunu əks etdirən mühüm amillər sistemi**

İqtisadi diversifikasiya strategiyalarının geniş yayılmış dövrü ərzində əmtəə bazarlarında kəskin volatilliyin müşahidə edilməsi diversifikasiyanın əhəmiyyətini daha da artırmışdır. Volatillik nəticəsində iqtisadiyyatı hər hansı az sayda məhsulların ixracından əldə edilən gəlirlərdən asılı olan dövlətlər əmtəə bazarlarında baş verən mənfi proseslərin təsiri ilə müxtəlif dövrlərdə iqtisadi böhranlarla üz-üzə qalmışdır. Qeyd etdiyimiz dövr ərzində qloballaşma tempi yüksəlmiş və

dünya iqtisadiyyatlarının bir-biri ilə əlaqələri daha da genişlənmişdir. Bu da özlüyündə ölkə iqtisadiyyatının sürətli inkişafına şərait yaratmaqla yanaşı dünyanın müxtəlif ölkələrində gedən proseslərin digər ölkələrə təsir etmək imkanlarını artırmışdır. Bunun nəticəsidir ki, dünya iqtisadiyyatı sürətlə inkişaf etməklə yanaşı eyni zamanda volatil mühitin yaranması qaçılmaz olmuşdur.

İqtisadi diversifikasiyanın inkişaf etməkdə olan və zəif inkişaf etmiş dövlətlər üçün əsas inkişaf modeli olaraq seçilməsi və beynəlxalq təşkilatlar tərəfindən təşviq edilməsi iqtisadi diversifikasiya istiqamətində iqtisadi ədəbiyyatın və nəzəri bazanın zənginləşməsində bu təşkilatların hazırladığı müxtəlif hesabatların da əhəmiyyəti böyükdür. Dünya Bankı tərəfindən hazırlanmış hesabatda göstərilir ki, iqtisadi diversifikasiya istiqamətində aparılan araşdırmalar nəzərdən keçirilərək iqtisadi diversifikasiyanın və həm də onun metodologiyasının formalaşmasına təsir edən əsas üç istiqamət müəyyənləşdirilmişdir. Bu istiqamətlərə **makroiqtisadi dəyişənlər, iqtisadi islahatlar** və **struktur amilləri** aiddir.

İqtisadiyyatın diversifikasiyasının əhəmiyyətinin artması və resurslardan asılı olan ölkələrin inkişaf strategiyalarının əsas hissələrindən birinə çevrilməsi iqtisadiyyatların və maliyyə bazarlarının qloballaşması ilə də sıx əlaqədardır. Yəni azad bazar şəraitində qlobal iqtisadi münasibətlərin sürətlə inkişaf etməsi yaranmış risklərin asanlıqla yayılmasına və digər ölkələrə təsir etməsinə imkan yaradır. Bu xüsusilə iqtisadi diversifikasiya səviyyəsi zəif olan və iqtisadi əməliyyatları əsasən bir neçə iqtisadi sektorda həyata keçirilən ölkələr üçün təhlükəlidir. Ona görə ki, belə iqtisadiyyatlar xarici təsirlərə qarşı həssasdır və xarici iqtisadi proseslərin mənfi təsirlərindən qorunmaq imkanları azdır.

İqtisadi diversifikasiyanın əhəmiyyətini artıran amillərdən biri də baş verən iqtisadi hadisələrin proqnozlaşdırılmasının çətinləşməsidir. Dünya iqtisadiyyatı sürətlə inkişaf etdikcə və müxtəlif sektorlar arasında əlaqələrin həssaslığı artdıqca baş verə biləcək hər hansı bir neqativ hadisənin digər sektorlara necə təsir edəcəyini müəyyənləşdirmək çətinləşir və bəzən mümkünsüz olur. Bazar iqtisadiyyatında iqtisadi subyektlərin daha çox öz maraqlarına xidmət etməsi isə baş verən neqativ iqtisadi hadisəyə münasibətin yalnız özünü qorumaq və

digərlərinə ötürmək xarakterinə malik olmasına gətirib çıxarır ki, bu da nəticə etibarilə neqativ hadisənin təsirinin sürətlə yayılmasına və daha da təsirli forma almasına səbəb olur. Əvvəlki dövrlərdə dünya iqtisadiyyatında qloballaşma səviyyəsi aşağı olduğundan baş verə biləcək hadisələrin təsir istiqamətlərini müəyyənləşdirmək daha asan idi və buna görə də iqtisadiyyatın hər hansı bir sektordan asılılığının yüksək olması o qədər də təhlükəli deyildi. Ona görə ki, bu sektora təsir edə biləcək hadisələri proqnozlaşdırmaq asan idi və əvvəlcədən onun mənfi təsirlərinin azaldılması istiqamətində lazımi tədbirləri həyata keçirmək mümkün idi. Hal-hazırkı dövrdə isə bunu etmək çətindir və gözlənilməz mənfi hadisələrin baş verməsi qaçılmazdır. Belə olan halda isə xarici iqtisadi proseslərin təsirlərindən qorunmaq üçün öncədən tədbirlərin həyata keçirilməsi çətin olduğundan belə proseslərdən qorunmaq üçün ən səmərəli vasitə iqtisadiyyatın diversifikasiya edilməsidir. Diversifikasiya olunmuş iqtisadiyyatların xarici neqativ iqtisadi proseslərə qarşı daha davamlı olması istənilən gözlənilməz hadisənin zərərli təsirlərinin daha asanlıqla idarə edilməsinə imkan yaradır. Nümunə üçün 1998-ci ildə baş vermiş Asiya maliyyə böhranını göstərmək olar. 1960-cı illərdən sonra davamlı və sürətli inkişaf edən cənub və Cənub-Şərqi Asiya ölkələrinin böhranla üzləşəcəyini heç kim proqnozlaşdırmamışdı. Əksinə, Dünya Bankı və Beynəlxalq Valyuta Fondu kimi nüfuzlu təşkilatlar bu ölkələrdə iqtisadi idarəetməni yüksək qiymətləndirir və iqtisadi artımın davam edəcəyini gözləyirdilər[1]. Lakin bu baş vermədi və Asiya ölkələrinin bir çoxu böhranın təsirindən uzun müddət iqtisadi geriləmə ilə üzləşməli oldu. Bu böhranı gözlənilməz və təhlükəli edən isə bu ölkələrin maliyyə bazarlarında bazar iqtisadiyyatı sisteminin diktəsi ilə tənzimləmənin azaldılması idi, hansı ki, bu ölkələrin hər hansı birində baş verən böhranın asanlıqla və sürətlə digər ölkələrə də yayılmasına imkan yaradırdı. Bu ölkələrdə iqtisadi diversifikasiya səviyyəsinin yüksək olmasına baxmayaraq baş verən böhran ümumilikdə dünya iqtisadiyyatının və güclü dövlətlərin zəifləməsinə şərait yaratdı ki, bu da resurslarla zəngin olan dövlətlərin ixrac əməliyyatlarına mənfi təsir edərək onların iqtisadiyyatlarının da

---

[1] *Joyce C. The Richest And Poorest Economies In The Middle East, Worldatlas, https://www.worldatlas.com/articles/the-richest-and-poorest-economies-in-the-middle-east.html*

zəifləməsinə yol açmış oldu. Buna görə də iqtisadi diversifikasiyanın yüksəldilməsi və iqtisadiyyatın xarici iqtisadi şoklara qarşı davamlılığının təmin edilməsi resursla zəngin dövlətlərin əsas makroiqtisadi məqsədinə çevrilməlidir.

**2. İqtisadi diversifikasiyanın mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və onun ən mühüm parametrlərinin Azərbaycan iqtisadiyyatında tətbiqi imkanlarının müəyyən edilməsi**

Dünyanın müxtəlif ölkələrinin iqtisadi diversifikasiya səviyyəsinin təhlili onu göstərir ki, daha yüksək iqtisadi diversifikasiya səviyyəsinə malik olan ölkələr inkişaf etmiş ölkələrdir. Bu ölkələrdə iqtisadi gəlirlərin formalaşması və əmək bazarı çoxsahəli struktura malik olmaqla müxtəlif sektorları özündə birləşdirir. Lakin burada o amil nəzərə alınmalıdır ki, bu ölkələrin əksəriyyətinin iqtisadiyyatları hər hansı bir resursdan asılı olmamış və onların iqtisadiyyatlarında formalaşmış yüksək iqtisadi diversifikasiya səviyyəsi iqtisadiyyatın hər hansı bir resursdan asılılığının aradan qaldırılması istiqamətində görülmüş tədbirlər nəticəsində formalaşmamışdır. Həmin ölkələrdə ənənəvi olaraq iqtisadiyyatın səmərəli inkişaf etdirilməsi və müxtəlif əmək fəaliyyəti ilə məşğul olan əhalinin işlə təmin edilməsi üçün iqtisadiyyatın hərtərəfli inkişaf etdirilməsinə çalışmışlar. Lakin resurslarla zəngin olan ölkələrdə iqtisadiyyatın idarə edilməsi ənənəsi fərqli olmuşdur. Belə ki, bu ölkələrdə resurslar əldə edildikdən sonra iqtisadi siyasət əsasən bu resurslar vasitəsilə iqtisadiyyatın inkişaf etdirilməsi və zəruri iqtisadi infrastrukturun resurs gəlirləri vasitəsilə yaradılmasına yönəldilmişdir. Bir çox hallarda bu ölkələr zəif inkişaf etmiş olduqlarından ilkin mərhələdə iqtisadiyyatın hərtərəfli inkişafına xidmət edə biləcək infrastruktura malik olmamaları onların iqtisadiyyatına resurslar tapıldıqdan sonra böyük həcmli valyuta ehtiyatları daxil olduğundan inkişaf əsasən bir sektordan asılı formada baş verir. Özlərini “neft lənəti” indən (oil curse) azad etmək üçün daha tez diversifikasiya siyasətini həyata keçirən bu ölkələr uzunmüddətli perspektivdə öz davamlı inkişaflarını təmin etmiş olurlar. Lakin yeni ehtiyatların tapılması artıq inkişaf etmiş ölkələrdə baş verirsə bu zaman artıq diversifikasiya olunmuş iqtisadi struktur resurslardan asılılığın təhlükəli həddə çatmasına imkan vermir. Buna nümunə olaraq böyük resurslara sahib olmalarına baxmayaraq yüksək iqtisadi diversifikasiyaya malik olan

Norveç və Kanada kimi dövlətləri göstərmək olar. Hollandiya isə qaz ehtiyatları tapıldıqdan sonra müəyyən dövr ərzində məhz bu ölkədə baş verən iqtisadi proseslər nəticəsində iqtisadi nəzəriyyəyə daxil olan "Holland sindromu" ilə üz-üzə qalsa da qısa müddət ərzində öz canını bu neqtiv iqtisadi prosesdən qurtardı və o, hal-hazırda inkişaf etmiş dövlətlərdən biri hesab edilir. Ölkələr haqqında qeyd etdiyimiz fərqləri və Azərbaycan iqtisadiyyatının inkişaf yolunu nəzərə alsaq bu zaman resursları sonradan əldə edən və ilkin mərhələdə resurslardan asılı qalan və daha sonra diversifikasiya siyasəti vasitəsilə bu asılılığın aradan qaldırılmasına çalışan dövlətlərin təcrübələrinin öyrənilməsi tədqiqat işi üçün daha əhəməiyyətlidir. Ona görə ki, bu təcrübələr əsasında Azərbaycan iqtisadiyyatının diversifikasiyasının təhlil edilməsi və bu istiqamətdə gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsi üçün belə ölkələrin təcrübəsi iqtisadi struktur baxımından daha uyğundur.

Azərbaycanda diversifikasiyanı özündə ehtiva edən və bu istiqamətdə həyata keçirilməsi zəruri olan tədbirləri özündə əks etdirən ilk əhatəli sənəd 2012-ci ildə qəbul edilmiş **"Azərbaycan 2020: Gələcəyə Baxış"** İnkişaf Konsepsiyası olmuşdur. Özündə 2020-ci ilə qədər strateji baxışı və prioritetləri əks etdirən bu konsepsiya 8 əsas istiqamət üzrə bölünmüşdür. Bu istiqamətlər iqtisadiyyatın diversifikasiya siyasəti ilə birbaşa əlaqəli olmasa da iqtisadiyyatın ümumi inkişafına xidmət etməklə iqtisadiyyatın diversifikasiyasına imkan yaradacaq mühitin formalaşmasını özündə əhatə edir.

Milli iqtisadiyyat perspektivi üzrə yol xəritəsində müəyyən edilmiş strateji hədəflərin və onların iqtisadiyyatın diversifikasiyası baxımından nə dərəcədə faydalı olduğunun təhlil edilməsinin tədqiqat işi üçün əhəmiyyəti böyükdür. Müəyyən edilmiş ilk strateji hədəf *fiskal dayanıqlığın gücləndirilməsi və davamlı monetar siyasətin* qəbul edilməsidir. Bu hədəfə daxil edilmiş ilk prioritet neft gəlirlərinin dövlət büdcəsinə köçürülməsini tənzimləyəcək "qızıl qayda"-nın qəbul edilməsidir. Yol xəritələrinin qəbul edilməsində və diversifikasiya siyasətinə keçidin reallaşdırılmasında əsas məqsədin neft gəlirlərindən asılılığın aradan qaldırılması olduğundan qızıl qaydanın tətbiq edilməsi və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsi böyük əhəmiyyətə malikdir. Xəritədə qızıl qaydanın tətbiqinin əhəmiyyəti kənar şokların təsiri ilə baş verə biləcək risklərin aradan qaldırılması,

gələcək nəsillər üçün ehtiyatın yaradılması və fiskal idarəetmənin effektivliyinin yüksəldilməsi ilə əsaslandırılır[2].

Azərbaycan iqtisadiyyatında yaradılan dəyərdə ən çox paya sahib olan sahələrdən biri sənaye sahəsidir. Buna görə də bu sahənin strukturunun nə dərəcədə şaxəli olması əhəmiyyətli məsələlərdən biridir. Azərbaycan iqtisadiyyatında neft amilinin böyük rola malik olması sənayenin strukturunda da özünü göstərir. Belə ki, sənayedə ən çox paya sahib olan sənaye sahəsi mədənçıxarma sənayesidir, onun payı son doqquz ildə 80%-dən yuxarı olmuşdur. 2012-ci ildə 87,2% səviyyəsində olduğu halda 2015-ci ildə 80,2%-ə qədər azalmışdır (cədvəl 1). Daha sonra artaraq 2019-cu ildə 92,3% səviyyəsinə çatmışdır. Emal sənayesində isə baxılan dövrdə bu sahənin payı artmışdır. Emal sənayesinin payı 2012-cı ildəki 8,6% səviyyəsindən 2015-ci ildə 15,2% səviyyəsinə qədər artmışdır. Son illərdə isə azalaraq 2020-ci ildə 13,2% səviyyəsinə qədər enmişdir. Elektrik enerjisi, qaz və buxar sənayesinin payı da mədənçıxarma sənayesində müşahidə edilən dəyişikliyə uyğun olaraq dəyişmişdir. Yəni onun payında 2014-cü ilə qədər artım müşahidə edilsə də son illərdə azalmaya meyilli olmuşdur. Belə ki, elektrik enerjisi, qaz və buxar sanayesinin payı 2012-ci ildə 4% səviyyəsində olduğu halda 2014-cü ildə son doqquz ildə ən yüksək həddinə 4,5% səviyyəsinə çatmışdır. Emal sənayesindən fərqli olaraq sənayenin bu sahəsndə azalma 2015-ci ildən başlamış və 2018-ci ildə 2,2% səviyyəsinə qədər azalmışdır (cədvəl 1).

**Cədvəl 1**

**Sənaye sahələrində yaradılmış əlavə dəyərin strukturu (faizlə)**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Mədənçıxarma sənayesi | 87,2 | 86,2 | 83,7 | 80,2 | 82,5 | 85,3 | 87,0 | 92,3 | 82,5 |
| Emal sənayesi | 8,6 | 9,3 | 11,4 | 15,2 | 13,9 | 11,8 | 10,4 | 12,1 | 13,2 |
| Elektrik enerjisi, qaz və buxar sanayesi | 4 | 4,2 | 4,5 | 4,1 | 3,1 | 2,5 | 2,2 | 2,4 | 3,5 |
| Su təchizatı, tullantıların təmizlənməsi | 0,2 | 0,3 | 0,4 | 0,5 | 0,5 | 0,5 | 0,4 | 0,5 | 1,1 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

[2] *"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmişdir) səh.60.*

İqtisadi ədəbiyyatda iqtisadi diversifikasiyanın səviyyəsinin müəyyən edilməsində əsas götürülən istiqamət **ixracın diversifikasiyasıdır**. Buna görə də Azərbaycanın ixracının əmtəə strukturu baxımından təhlil edilməsi önəmlidir. 2012-2017-ci illər ərzində neft-qaz sektoru üzrə ixracın həcmində neft qiymətlərinin azalmasının təsiri ilə əsaslı dəyişikliklər baş vermişdir. Belə ki, xam neftin əsasını təşkil edən mineral məhsulların ixracının həcmi ABŞ dolları ifadəsində 2016-cı ildə 2012-ci illə müqayisədə 2,8 dəfə azalaraq 8 milyard dollar səviyyəsindən aşağı düşmüşdür (cədvəl 2).

**Cədvəl 2**

**İxracın əmtəə strukturu (milyon ABŞ dolları)**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Mineral | 22281 | 22256 | 20194 | 11203 | 7987 | 12404 | 17924 | 17852 | 12028 |
| Digər | 1627 | 1720 | 1635 | 1526 | 1156 | 1408 | 1565 | 1783 | 1712 |
| Cəmi | 23908 | 23975 | 21829 | 12729 | 9143 | 13812 | 19489 | 19635 | 13740 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Bu azalma neftin qiymətinin dünya bazarlarında 3 dəfəyə qədər azalması nəticəsində baş vermişdir. Bu illər ərzində hər il ixrac edilən mineral məhsulların həcmində azalma müşahidə edilmişdir. Sonradan neft qiymətlərinin artması nəticəsində 2019-ci ildə mineral məhsullarının ixracının həcmi 17,8 milyard dollara qədər artmış və pandemiyanın təsiri nəticəsində 2020-ci ildə 12 milyard dollara qədər azalmışdır.

İxracın diversifikasiya səviyyəsinin daha dəqiq müəyyənləşdirilməsi üçün mineral məhsulların və digər məhsullar qrupuna daxil olan əmtəələrin ixracda payının təhil edilməsi gərəkdir. Son doqquz ildə ümumi mənzərə ondan ibarətdir ki, ixracda mineral məhsulların payı azalmış, əksinə olaraq digər məhsulların payı artmışdır. Belə ki, mineral məhsulların ixracda payı 2012-ci ildə 93,2% səviyyəsində olduğu halda 2017-ci ildə 89,8%-ə qədər azalmışdır və sonra müəyyən qədər artsa da 2012-ci ildəki səviyyəsinə çatmamışdır. (cədvəl 3). Bu azalmanın formalaşması neft qiymətlərinin aşağı düşməsi ilə yanaşı iqtisadiyyatın diversifikasiyası istiqamətində atılan addımlar ilə bağlıdır. Buradan o nəticəyə gəlmək olar ki, diversifikasiya siyasəti özünü doğrultmaqdadır. Digər əmtəə

qruplarının ixracda payına gəldikdə isə ən böyük paya bitki mənşəli məhsullar sahibdir.

**Cədvəl 3**

**İxracın əmtəə strukturu (faizlə)**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Mineral məhsullar | 93,2 | 92,8 | 92,5 | 88 | 91,4 | 89,8 | 92 | 90,9 | 87,5 |
| Bitki mənşəli məhsullar | 1,3 | 1,3 | 1,5 | 2,6 | 2,9 | 3,8 | 3 | 3,2 | 4,5 |
| Az qiymətli metallar və məmulatları | 0,9 | 0,8 | 0,6 | 1 | 1,7 | 1,8 | 1,3 | 1,2 | 1,5 |
| Hazır ərzaq məhsulları, içkilər, tütün | 1,3 | 1,4 | 1,4 | 2,2 | 0,9 | 0,8 | 0,5 | 0,5 | 0,7 |
| Plastik kütlələr, kauçuk, rezin | 0,5 | 0,5 | 0,7 | 0,9 | 0,7 | 0,7 | 0,6 | 0,9 | 1,2 |
| Mirvari, qiymətli daşlar və metallar | 0,3 | 0,3 | 0,4 | 0,7 | 0,6 | 1 | 0,8 | 0,9 | 1,5 |
| Heyvan və ya bitki mənşəli yağlar | 0,9 | 1 | 0,9 | 1,2 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,2 |
| Kimya sənaye məhsulları | 0,7 | 0,2 | 0,3 | 0,6 | 0,4 | 0,6 | 0,4 | 0,5 | 0,6 |
| Nəqliyyat vasitələri, uçan aparatlar | 0,2 | 0,4 | 0 | 0 | 0,5 | 0,1 | 0 | 0,1 | 0 |
| Toxuculuq materialları və məmulatları | 0,2 | 0,2 | 0,2 | 0,3 | 0,3 | 0,6 | 0,7 | 0,9 | 1,3 |
| Gön, dəri, xəz və məmulatları | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

İxracın diversifikasiyası ilə bağlı digər əhəmiyyətli məqam *diversifikasiyanın ölkələr baxımından hansı səviyyədə olmasıdır.* Qeyd etdiyimiz kimi ixracın diversifikasiyasının siyasi üstünlükləri də vardır. Bu baxımdan diversifikasiyanın ölkələr üzrə hansı səviyyədə olmasını təhlil edək. Son səkkiz il ərzində ixracda ən böyük paya sahib olan ölkə İtaliya olmuşdur və onun payı 2013-cü ildə 25% səviyyəsinə olduğu halda 2016-cı ildə 17%-ə qədər azalmışdır.

2017-ci ildə isə İtaliyanın ixracda payı 1,9 dəfə artaraq son səkkiz ilin ən yüksək həddinə 31,9% səviyyəsinə çatmışdır. Sonrakı illərdə azalma baş versə də 2020-ci ildə 30%-dən yüksək olmuşdur. İtaliyanın payının yüksək olması neft ixracı ilə əlaqədardır. Mineral məhsullar ixracda böyük paya sahib olduğundan İtaliyaya neft məhsullarının ixrac edilməsi onun ixracda payının yüksək olmasına gətirib çıxarır. İtaliya ilə yanaşı İsrail də Azərbaycan neftinin alıcısı olduğundan o da ixracda böyük paya sahibdir. 2015-ci ildən Türkiyəyə qaz ixracının artması isə bu ölkəni ən çox məhsul ixrac edilən ikinci ölkəyə çevirmişdir. 2015 və 2016-cı illərdə Türkiyənin ixracda payı 12% səviyyəsində olduğu halda 2017-ci ildə azalaraq 9,9% səviyyəsinə düşmüşdür

İqtisadiyyatın diversifikasiya səviyyəsinin müəyyən edilməsi üçün əhəmiyyətli istiqamətlərdən biri də *əmək bazarının iqtisadi fəaliyyət növləri üzrə bölgüsüdür.* Bu eyni zamanda iqtisadi fəaliyyət növlərinin əmək məhsuldarlığı, əmək tutumluluğu və dəyər yaratma baxımından nə dərəcədə səmərəli olduğunu göstərir. ÜDM-dən və ixracdan fərqli olaraq əmək bazarında neft sektorunun payı yüksək deyildir. Burada ən çox paya kənd təsərrüfatı malikdir. Belə ki, nəzərdən keçirdiyimiz dövr ərzində kənd təsərrüfatı sahəsinin əmək bazarında payının ən yüksək həddi 2012-ci ildə (37,7%), ən aşağı həddi isə 2019-cu ildə (36%) müşahidə edilmişdir.

Son illərdə Azərbaycan iqtisadiyyatında formalaşmış vəziyyətin təhlil edilməsi üçün *iqtisadiyyata yönəldilmiş investisiyaların sektorlar, növ və iqtisadi sahələr baxımından təhlil edilməsi önəmlidir.* Buna görə də əsas kapitala yönəldilmiş investisiyaların strukturunu müxtəlif istiqamətlərdə təhlil edək. Ümumilikdə, əsas kapitala yönəldilmiş investisiyaların həcmində 2014-cü ildən sonra azalma müşahidə edilsə də 2017-ci ildə yenidən artaraq əvvəlki səviyyəsinə yaxınlaşmışdır. Növbəti üç il ərazində azalsa da 17 milyard manatdan çox olmuşdur. 2014-2016-cı illər ərzində azalma 1,8 milyard manat olmuşdur (cədvəl 4).

**Cədvəl 4. Əsas kapitala yönəldilmiş investisiyalar (milyard manat)**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi | 15,41 | 17,85 | 17,62 | 15,96 | 15,77 | 17,43 | 17,24 | 17,18 | 17,03 |
| Xarici | 3,26 | 4,67 | 4,90 | 6,90 | 9,28 | 8,67 | 5,22 | 5,19 | 5,12 |
| Daxili | 12,15 | 13,18 | 12,72 | 9,06 | 6,49 | 8,77 | 12,02 | 11,99 | 11,91 |
| Neft sektoru | 3,85 | 5,09 | 5,96 | 7,14 | 8,65 | 8,48 | 6,32 | 5,21 | 5,22 |
| Q/neft sektoru | 11,55 | 12,76 | 11,66 | 8,82 | 7,12 | 8,95 | 10,91 | 11,98 | 11,81 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Əsas kapitala yönəldilmiş investisiyaların həcmində böyük dəyişiklik baş verməsə də onun daxili və xarici investisiyalar baxımından strukturunda əsaslı dəyişikliklər baş vermişdir. Belə ki, xarici investisiyaların illik həcmi 2012-2017-ci illər ərzində 5,4 milyard manat artmışdır. 2017-2020-ci illərdə isə 3.55 milyard manat azalmışdır.

### 3. Azərbaycanda aparılan iqtisadi diversifikasiyanın maliyyə səmərəliliyinin ən mühüm göstəricilər əsasında qiymətləndirilməsi

Apardığımız təhlil ümumi mənzərəni ortaya qoyaraq

diversifikasiya istiqamətində əldə edilmiş müsbət nəticələri özündə əks etdirsə də, bu nəticələrin maliyyə səmərəliliyini, müxtəlif diversifikasiya konsepsiyaları çərçivəsində faydalılığını və müxtəlif iqtisadi sahələrin diversifikasiyanın əldə edilməsinə nə dərəcədə təsir etdiyini müəyyən etməyə imkan vermir. Bu baxımdan diversifikasiya səviyyəsinin və onun maliyyə səmərəliliyinin qiymətləndirilməsinə ehtiyac yaranır.

Əsas iqtisadi göstəricilərdən biri olan ÜDM-in artım tempinin neft və qeyri-neft sektorları üzrə dəyişməsinə diqqət yetirsək görərik ki, qeyri-neft sektorunun artım tempində müşahidə edilən dəyişikliklər ÜDM-də baş verən ümumi dəyişikliklərlə uyğunluq təşkil edir. Yəni həm ÜDM-in orta artım tempi, həm də qeyri-neft sektorunda yaradılmış dəyərin artım tempi qrafik olaraq eyni istiqamətdə hərəkət edir (qrafik 1).




**Qrafik 1. ÜDM-in artım sürəti (faizlə)**

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Qrafik 1-dən göründüyü kimi 2013-2016-cı illər ərzində həm ÜDM-in orta artım tempində, həm də qeyri-neft sektoru üzrə ÜDM-in artım tempində azalma müşahidə edilmiş və 2017-2019-cu illərdə hər iki göstərici üzrə yenidən artım olmuşdur. Neft sektoru isə bu qanunauyğunluqdan kənarda qalmışdır. Belə ki, bu sektor üzrə artım tempi 2014-cü ildə azalmış, 2015-ci ildə artmış, 2017-ci ildə yenidən azalmış və 2020-ci ilə qədər artmışdır. 2017 və 2020-ci illərdə artım tempi kəskin şəkildə azalmış və müvafiq olaraq -5.3% və -7.2%

səviyyəsində olmuşdur. Buradan o nəticəyə gələ bilərik ki, orta ÜDM göstəricisi kimi qeyri-neft sektoru üzrə ÜDM-də neft qiymətlərindən təsirlənməkdədir. Əgər neft qiymətlərinin azalmasının qeyri-neft sektoruna təsiri az olsa idi o zaman neft qiymətlərinin azaldığı dövrdə (2014-2016) qeyri-neft sektoru ən pis halda özünün artım tempini qorumalı idi. Ona görə də deyə bilərik ki, ÜDM-in tərkibində qeyri-neft sekotrunun payının yüksək olması özündə diversifikasiyanın maliyyə səmərəliliyini tam ehtiva edə bilmir.

Qeyri-neft sektorunun tərkibinin təhlili burada diversifikasiya səviyyəsinin yüksək olduğunu göstərir. Qeyr-neft sektorunun müxtəlif sahələrinin dinamikasından görə bilərik ki, son illərdə xidmət sektorunun ÜDM-də payı artmış, əksinə tikinti sektorunun payı isə azalmağa meyilli olmuşdur. Xidmət sektoru ilə yanaşı ticarət, nəqliyyat vasitələrinin təmiri və turistlərin yerləşdirilməsi sahələrində də artım müşahidə edilmişdir. Kənd təsərrüfatının payında isə əsaslı dəyişikliklər baş verməmişdir. Yalnız 2020-ci ildə pandemiyanın təsiri ilə bu sahələrdə müəyyən azalmalar olmuşdur. Qeyri-neft sektoru daxilində sahələrin payında baş verən bu dəyişikliklər təhlil etdiyimiz illər ərzində onun diversifikasiya səviyyəsinin necə dəyişdiyini müəyyən etməyə imkan vermir. Bu baxımdan sektor daxilində təmərküzləşməni müəyyən etmək üçün ***Herfindal-Hirşman*** indeksindən istifadə edə bilərik.

**Cədvəl 5**

**Qeyri-neft sektorunda yaradılan ÜDM-in strukturu (faizlə)**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Qeyri neft-qaz sənayesi | 9,5 | 8,8 | 8,6 | 9,0 | 7,9 | 7,7 | 8,8 | 7,9 | 8,7 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı | 10,7 | 10,2 | 9,5 | 9,8 | 9,4 | 9,8 | 10,0 | 10,3 | 11,1 |
| Tikinti | 19,0 | 22,7 | 22,3 | 19,1 | 16,8 | 16,6 | 14,8 | 13,5 | 12,4 |
| Nəqliyyat və anbar təsərrüfatı | 11,1 | 9,2 | 8,0 | 8,5 | 11,4 | 11,9 | 11,8 | 11,2 | 11,5 |
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 13,8 | 13,7 | 14,1 | 15,7 | 17,3 | 18,2 | 18,4 | 17,8 | 18,5 |
| Turistlərin yerləşdirilməsi | 3,5 | 3,5 | 3,9 | 4,3 | 4,0 | 4,0 | 4,4 | 4,4 | 1,9 |
| Sosial və digər xidmətlər | 28,5 | 28,3 | 30,4 | 30,4 | 30,4 | 28,7 | 30,8 | 29,1 | 27,9 |
| **H.Hirşman indeksi** | 0,172 | 0,179 | 0,187 | 0,181 | 0,181 | 0,174 | 0,184 | 0,166 | 0,161 |

*Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

İndeksin nəticələrindən görə bilərik ki, ümumilikdə bu sektor daxilində Herfindal-Hirşman indeksi 0,16-0,18 ətrafında dəyişmişdir, bu isə təmərküzləşmənin aşağı səviyyədə olduğunu göstərir (cədvəl 5). Eyni zamanda onu da qeyd etmək yerinə düşər ki, 2012-2018-ci illərdə indeksdə artım, son iki ildə isə azalma müşahidə edilmişdir. Lakin bu dəyişikliklər az olduğundan ümumilikdə təmərküzləşmə nəzərəçarpacaq dərəcədə dəyişməmişdir.

Əsas kapitala yönəldilmiş investisiyalarla yanaşı iqtisadiyyatın müxtəlif sahələrinə yönəldilmiş kredit qoyuluşlarının da dəyər yaratma qabiliyyəti diversifikasiyanın maliyyə səmərəliliyinin qiymətləndirilməsi baxımından əhəmiyyətlidir. İqtisadiyyat daxilində maliyyə vəsaitlərinin bölüşdürülməsində kreditlərin böyük rola malik olması onların maliyyə səmərəliliyinin göstəricisi kimi qəbul olunmasına imkan verir. Kreditlərin səmərəliliyi eyni zamanda bank sisteminin nə dərəcədə səmərəli fəaliyyət göstərdiyini müəyyən etməyə imkan verir. Əvvəlki nümunədə olduğu kimi kredit qoyuluşları ilə yaradılmış əlavə dəyər arasında asılılığı müəyyən etmək üçün fayda-xərc nisbətindən istifadə edək. Alınmış nəticələr qrafik 2-də öz əksini tapmışdır.




**Qrafik 2. İqtisadiyyata kredit qoyuluşları və yaradılmış əlavə dəyər arasında fayda-xərc asılılığı**

*Qeyd: Qrafik Azərbaycan Respublikasının Mərkəzi Bankının və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Qrafikdən göründüyü kimi 2012-2020-ci illər ərzində fayda-xərc nisbətinin ən böyük artımının müşahidə edildiyi sahə inşaat və

əmlak sektoru olmuşdur. Belə ki, 2012-2019-cu illər ərzində bu nisbət 3 dəfədən çox artaraq 2019-cu ildə 16,2 səviyyəsinə çatmışdır. 2013, 2015 və 2020-ci illərdən başqa qalan illərdə bu sahədə fayda-xərc nisbəti artmışdır. Kreditlərin dəyər yaratmaq qabiliyyətinin ikinci ən çox artdığı sahə ticarət və xidmət sektoru olmuşdur Bu sahədə artım 2012-2017-ci illərdə 2 dəfədən çox olmuşdur.

İqtisadiyyatın diversifikasiyasının səmərəliliyi eyni zamanda əmək bazarının nə dərəcədə şaxəli olması ilə də müəyyən edilir. Müxtəlif sahələrdə fəaliyyət göstərən əmək qüvvəsi ilə həmin sahələrdə yaradılan dəyəri müqayisə etməklə əmək məhsuldarlığını müəyyən etmək mümkündür. Azərbaycanın əmək bazarına nəzər saldıqda görürük ki, burada digər sahələrdə və istiqamətlərdə olduğu kimi neft sektorunun payı yüksək deyildir. Neft sektorunun aid olduğu mədənçıxarma sənayesinin əmək bazarında payı heç bir faizə çatmır (qrafik 3).




**Qrafik 3. İqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin bölgüsü**

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

İstər ixracda, istərsə də ÜDM-in formalaşmasında neft sektorunun böyük paya sahib olmasına baxmayaraq əmək bazarında payının kifayət

qədər aşağı olması bu sahədə əmək məhsuldarlığının yüksək olduğu fikrini formalaşdırır. Ancaq digər sahələrə baxdıqda tamamilə fərqli mənzərə ortaya çıxır. Nəzərdən keçirdiyimiz dövrdə əmək bazarında ən böyük paya sahib olan kənd təsərrüfatının ÜDM-in formalaşmasında payı 5-6% ətrafında dəyişmişdir. Buradan görünür ki, kənd təsərrüfatında əmək məhsuldarlığı kifayət qədər aşağı səviyyədədir. Neft və kənd təsərrüfatı sektorları üzrə əmək bazarının və yaradılan əlavə dəyərin müqayisəsi onu göstərir ki, Azərbaycanda iqtisadi inkişafın formalaşmasında işçi qüvvəsinin payı zəifdir.

**4. İqtisadi inkişafın strateji məqsədləri istiqamətində iqtisadi diversifikasiyanın maliyyə səmərəliliyinin yüksəldilməsi mənbələri.**

İqtisadi diversifikasiyanın və onun maliyyə səmərəliliyinin yüksəldilməsi üçün ilk növbədə davamlı maliyyə mənbələrinin olması vacibdir. Diversifikasiya siyasəti əhatəli və uzunmüddətli çəkən proses olduğundan böyük həcmdə maliyyə vəsaitlərinin mövcudluğunu tələb etməklə yanaşı uzunmüddətli perspektivdə bu mənbələrin davamlı olmasını da tələb edir. Yalnız bu halda diversifikasiyanın maliyyə səmərəliliyinin yüksəldilməsindən söhbət gedə bilər. Əks halda, zəruri və davamlı maliyyə mənbələrinin olmadığı və ya aşağı səviyyədə olduğu şəraitdə diversifikasiyanın maliyyə səmərəliliyi də aşağı səviyyədə olacaqdır.

Azərbaycanda iqtisadiyyatın diversifikasiyasının əsas mənbəyi kimi **dövlət büdcəsi** çıxış edir. Azərbaycanda diversifikasiya siyasəti hələ ilkin mərhələdə olduğundan onun maliyyələşməsinə və bununla da maliyyə səmərəliliyinin yüsksəldilməsinə dövlət dəstəyinin verilməsi vacibdir. Son illərdə iqtisadiyyatın diversifikasiyasına xidmət edən Strateji Yol Xəritələrinin tətbiqinin həyata keçirilməsi, diversifikasiya siyasətinin həyata keçirilməsi üçün yaradılmış müxtəlif təşkilatlar və dövlət orqanlarının maliyyələşdirilməsi, iqtisadiyyatın müxtəlif sahələrinin o cümlədən kiçik və orta sahibkarlığın inkişafına dəstəyin verilməsi məhz büdcədən ayrılan vəsaitlər vasitəsilə həyata keçirilir. Büdcənin gəlir və xərclərinin formalaşması və dövlətin iqtisadiyyatı maliyyələşdirmə imkanlarının artması eyni zamanda diversifikasiyanın maliyyə səmərəliliyinin yüksəldilməsi üçün zəruri maliyyə mənbələrinin formalaşmasına gətirib çıxarır.

Büdcənin gəlirlərinin formalaşmasında isə *gömrük və vergi*

*daxilolmaları ilə yanaşı Azərbaycan Respublikasının Dövlət Neft Fondundan (ARDNF) daxilolmalar* da böyük rola malikdir. Buna görə də iqtisadiyyatın maliyyələşdirilməsi və diversifikasiyanın maliyyə səmərəliliyinin yüksəldilməsinə imkan yaradan maliyyə mənbələrinin formalaşmasında Dövlət Neft Fondunun da böyük rolu vardır. Lakin, onu qeyd etmək lazımdır ki, neft fondundan transfertlərin büdcədə rolu çox olduqca bu iqtisadiyyatın neftdən asılılığını artırmış olur ki, bu da neft qiymətlərində baş verən dəyişikliklərin daha asanlıqla iqtisadiyyata təsir etməsinə imkan yaradır. Ona görə də neft fondunun və bununla da neft gəlirlərinin iqtisadiyyatda payının azaldılması üçün yeni mexanizm olan "Qızıl Qayda"-nın tətbiq edilməsi planlaşdırılır. Bu qayda "Starteji Yol Xəritəsi"-ində də yer almışdır. Bu qaydanın tətbiq edilməsi neft gəlirlərinin iqtisadiyyata transferi üçün müəyyən hədd müəyyənləşdirir. Gəlirlər bu həddən çox olduqda isə bu vaəsitlər yeni yaradılmış fonda köçürülərək xarici investisiyalara yönəldilir.




**Qrafik 4. Dövlət Neft Fondundan büdcəyə transfertlər**

*Mənbə: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi*

Dövlət Neft Fondundan transfertlərin büdcə gəlirlərində payı da onun həcmində baş verən dəyişikliklərə uyğun formada baş vermişdir. Yəni, transfertlərin büdcə gəlirlərində payı 2013-2017-ci illərdə azalmış, sonrakı illərdə isə artmışdır (Qrafik 4). 2013-2017-ci illərdə transfertlərin payı 58,2%-dən 36,9% qədər azalmışdır. Sonrakı illərdəki artım nəticəsində 2020-ci ildə 49,4% səviyyəsinə çatmışdır.

ARDNF iqtisadiyyatın diversifikasiyasının maliyyə səmərliliyinin

yüksəldilməsində büdcə vasitəsilə dolayı olaraq iştirak etdiyinidən onun əsas maliyyə mənbəyi kimi strukturunun da təhlil edilməsi önəmlidir. İstər böhran dövründə iqtisadiyyata maliyyə dəstəyinin verilməsində, istərsə də müxtəlif dövlət proqramlarının həyata keçirilməsində neft fondunun vəsaitləri bufer rolunda çıxış edərək maliyyə təhlükəsziliyini təmin edir.

Ümumilikdə, ARDFN-nin aktivləri 2014-cü ilə qədər artım tempinə malik olmuşdur. Bu, illər boyu neft fondunun gəlirlərinin xərclərini böyük həcmdə üstələməsi nəticəsində mümkün olmuşdur. Lakin, 2014-2016-cı illərdə neft gəlirlərinin azalması fonunda fondun istər gəlirlərində, istərsə də xərclərində azalma müşahidə edilmişdir. Gəlirlərdə olan azalma xərclərdən daha çox olduğundan fondun aktivləri azalmaya meylli olmuşdur. 2017-2020-cu illərdə isə yenidən artmışdır (10,46 milyard ABŞ dolları). 2014-2016-cı illərdə azalma 4 milyard dollar təşkil etmişdir (Qrafik 5).




**Qrafik 5. ARDNF-nin gəlir, xərc və aktivləri**

*Mənbə: ARDNF-nin illik hesabatları*

Yalnız 2015 və 2020-ci illərdə xərclər gəlirləri üstələmişdir və xərclər gəlirlərdən müavfiq olaraq 1,53 milyard dollar və 3 milyard dollar çox olmuşdur. Bütün bunlara baxmyaraq bu illər ərzində fondun aktivlər daima 30 milyard dollar səviyyəsindən yuxarıda olmuşdur.

Dövlət Neft Fondunun aktivləri ilə yanaşı ölkənin strateji valyuta ehtiyatlarının formalaşmasında *Mərkəzi Bankın ehtiyatları* da rol oynayır. Buna görə də strateji valyuta ehtiyatlarının həcmi daha

böyükdür. Təhlil etdiyimiz dövr ərzində Mərkəzi Bankın valyuta ehtiyatlarında 2015-ci ildə kəskin azalma müşahidə edilmişdir. 2015-ci ildə Mərkəzi Bankın valyuta ehtiyatlarında 8,8 milyard dollar azalma müşahidə edilmişdir ki, bu da həmin il iki dəfə devalvasiyanın həyata keçirilməsinə gətirib çıxarmışdır. Bu da strateji valyuta ehtiyatlarının azalmasında əsas rola malik olmuşdur. ARDNF-nin məlumatlarına əsasən Azərbaycan Respublikasının strateji valyuta ehtiyatları 2014-cü ilə qədər artan tempə malik olmuş və 2014-cü ildə 50,9 milyard ABŞ dollarına çatmışdır. 2016-cı ilə qədər isə 13,8 milyard dollar azalmışdır. Bu azalma iqtisadiyyatı böhran vəziyyətindən çıxarmağa və iqtisadiyyatda müşahidə edilən xarici valyutaya olan tələbatı qarşılamağa imkan yaratmışdır. 2017-ci ildən etibarən isə artmağa başlamış və 2020-ci ildə 51,25 milyard dollara çatmışdır.

Dövlət tərəfindən həyata keçirilən maliyyələşmə ilə yanaşı iqtisadiyyatın diversifikasiyasının maliyyələşdirilməsində *banklar da əsas maliyyə mənbələrindən biri kimi* çıxış edirlər. Diversifikasiya siyasətinin həyata keçirilməsində və onun əhatə dairəsinin genişləndirilməsində sahibkarlıq əsas rollardan birinə malikdir. Buna görə də sahibkarlığın maliyyələşdirlməsi ilə banklar diversifikasiyasiya siyasətinin maliyyə səmərəliliyinin yüksəldilməsində yaxından iştirak edirlər. Bu baxımdan da diversifikasiyanın maliyyələşdirilməsinin əsas mənbələrindən biri kimi iqtisadiyyata yönəldilmiş kredit qoyuluşlarının nəzərdən keçirilməsi əhəmiyyətlidir.

## 5. İqtisadi diversifikasiyanın maliyyə səmərəliliyinin səviyyəsinin yüksəldilməsinin əsas istiqamətləri

Hal-hazırda Azərbaycanda aparılan iqtisadi siyasətin qarşısında dayanan əsas vəzifə iqtisadiyyatın diversifikasiyası vasitəsilə qeyri-neft sektorunun inkişaf etdirilməsidir. Bu vəzifənin yerinə yetirilməsinin əsas məqsədi isə iqtisadiyyatı xarici təsirlərdən qorumaq və neftin qiymətlərində baş verən volatilliklərin mənfi təsirlərini neytrallaşdımaq imkanlarının daha da genişləndirilməsidir.

Bu istiqamətdə təklif etdiyimiz və iqtisadiyyatın diversifikasiya səviyyəsini və onun maliyyə səmərəliliyini yüksəltməyə imkan verə bilən tədbirlər aşağıdakılardan ibarət ola bilər.

**1) Ümumdünya Ticarət Təşkilatına üzvlüyün əldə edilməsi**. Ümumdünya Ticarət Təşkilatı (ÜTT) dünya iqtisadiyyatının inkişafında

əsas rola malik olan təşkilatlardan biri olmaqla dünya ölkələri arasında ticarət münasibətlərinin səmərəliliyinin yüksəldilməsinə və iqtisadi münasibətlərin genişlənməsinə xidmət edir.

**2) Yeni bazarlara çıxışın əldə edilməsi**. Qeyd etdiyimiz kimi hal-hazırda Azərbaycanın yerli məhsullarının Avropa və Amerika kimi inkişaf etmiş bazarlarda rəqabət aparmaq imkanları zəifdir. Sözsüz ki, qısa iqtisadi inkişaf müddətində dünya standartlarına tam cavab verən və inkişaf etmiş bazarlarda rəqabət apara biləcək məhsullar istehsal etmək çətindir. Bu istiqamətdə həyata keçirilən islahatlar uzunmüddətli perspektivdə Azərbaycan məhsullarının da asanlıqla inkişaf etmiş bazarlara çıxış əldə etmsinə imkan yaradacaqdır. Lakin ona qədər digər bazarların nəzərdən keçirilməsi və Azərbaycan məhsullarının rəqabət apara biləcəyi yeni bazarların müəyyən edilməsi vacibdir.

**3) Yenidən ixrac**. İqtisadiyyatın gəlir mənbələrini artırmağın ən səmərəli vasitələrindən biri də təkrar ixracın həyata keçirilməsidir. Bu proses hər hansı bir ölkənin həm alıcı, həm də satıcı münasibəti saxladığı digər ölkələr ilə iqtisadi münasibətlərinin inkişaf etməsinə və tərəfdaşlarının sayının artmasına imkan yaradır.

**4) Maliyyə əlçatanlığının yüksəldilməsi**. İqtisadiyyatın diversifikasiya siyasətinin həyata keçirilməsində iqtisadi subyektlərin maliyyə əlçatanlığının əhəmiyyəti böyükdür. Ona görə ki, iqtisadiyyatın diversifikasiya siyasətinin əsas aparıcı qüvvəsi sahibkarlar hesab edilir. Sahibkarların isə öz fəaliyyətlərini daha da genişləndirməsi və hər hansi bir iqtisadi sahədə fəaliyyət göstərmək üçün stimullarının artması maliyyə vəsaitlərinin əlçatanlığı ilə bağlıdır. Xüsusilə də biznes fəaliyyətinə yeni başlayan iqtisadi subyektlərin risklilik səviyyəsi ilə əlaqədar olaraq maliyyə vəsaitlərini əldə etmək imkanlarının zəif olması bəzi hallarda diversifikasiya prosesini ləngitmiş olur. Buna görə də iqtisadiyyat daxilində diversifikasiya siyasətinin daha səmərəli həyata keçirilməsi üçün sahibkarlara ucuz maliyyə vəsaitlərinin təklif edilməsi önəmli məsələlərdən biridir.

**5) Maliyyə və banklararası bazarların inkişaf etdirilməsi.** İnkişaf etmiş ölkələrin iqtisadi sistemlərini səmərəli edən əsas səbəblərdən biri maliyyə bazarlarının inkişaf səviyyəsinin yüksək olmasıdır. Səmərəli maliyyə bazarlarının mövcud olması iqtisadi subyektlərin daha çox gəlir əldə etməsinə və daha rəqabət qabiliyyətli

olmalarına imkan yaradır. Yeni yaranan şirkətlər üçün maliyyə bazarları vasitəsilə vəsaitlərin cəlb edilməsi geniş imkanlar yaradaraq onların maliyyə vəsaitlərinə əlçatanlığını yüksəltmiş olur.

**6) İşğaldan azad edilmiş ərazilərdəki ehtiyatlardan istifadə.** 2020-ci ildə "44 Günlük Müharibədən Sonra" Azərbaycan ordusunun otuz ilə yaxın işğalda olan əraziləri işğaldan azad etməsi Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə yanaşı yeni iqtisadi imkanlar da yaratmışdır. 90-ci illərdə Azərbaycan ərazisinin 20%-ə qədərinin işğalı böyük həcmdə təbii resursların əldən çıxmasına şərait yaratmışdır. İşğaldan öncə həmin ərazilərdə olan ehtiyatlar Azərbaycanın ümumi taxıl istehsalının 24%-ni, spirtli içki istehsalının 41%-ni, ət istehsalının 18%-ni, kartof istehsalının 46%-ni və süd istehsalının 34%-ni təmin edirdi. Qeyd edilən istehsal imkanlarını həmin ərazilərdə olan 7 minə yaxın müəsisə tərəfindən təmin edilirdi ki, işğal nəticəsində bu müəsisələrin demək olar ki, hamısı dağısdılmışdı. İşğaldan əvvəl bu torpaqların iqtisadiyyatda böyük rol oynaması və daha sonra işğal nəticəsində əldən çıxması o dövrdə Azərbaycan iqtisadiyyatına əsaslı şəkildə təsir etmişdir. Belə ki, 1989-1994-cü illərdə ÜDM-in ümumi həcmi 60%, kənd təsərrüfatı sahəsində ÜDM 43%, sənaye sahəsində isə 60% azalmışdır. Sonrakı illərdə Azərbaycan iqtisadiyyatı sürətli şəkildə inkişaf edərək böhrandan çıxsa da torpaqlarımız azad edilənə qədər orada yerləşən resurslara çıxış əldə olunmamışdır. Ona görə də əvvəl işğalda olan torpaqlarımızın azad edilməsi həmin resurslara çıxış imkanlarını bərpa etdiyindən yeni iqtisadi inkişaf imkanları yaratmışdır. İşğal dövründə itirilmiş iqtisadi imkanların miqyası azad edilmiş ərazilərimizdə yaranmış yeni imkanların nə qədər böyük və əhəmiyyətli olduğunu göstərir.

## Nəticə

Bütün bunları nəzərə alaraq tədqiqatda qlobal iqtisadi münasibətlər sistemində gedən proseslər və proseslərin ölkələrin iqtisadiyyatları üçün yaratdığı risklər təhlil edilmiş və bu baxımdan iqtisadiyyatın diversifikasiyasının əhəmiyyəti əsaslandırılmışdır.

1. Tədqiqatda göstərilmişdir ki, iqtisadiyyatın diversifikasiyası modeli məhdud sayda məhsulların ixracından asılı olan dövlətlərin öz iqtisadiyyatlarını əmtəə və maliyyə bazarlarında mövcud olan volatilliklərdən qoruması üçün ən səmərəli modellərdən biridir. Ona görə ki, iqtisadiyyatın diversifikasiyası ölkələrin gəlir mənbələrini

şaxələndirməyə və valyuta kanallarının sayını artırmağa imkan yaradır. Bu isə diversifikasiyanın maliyyə səmərəliliyini yüksəltdiyini göstərir. İqtisadiyyata daxil olan maliyyyə vəsaitlərinin çoxşaxəli olması maliyyə təhlükəsizliyinin davamlılğını təmin etməyə imkan verir ki, bu da iqtisadi subyektlərin səmərəli fəaliyyəti üçün zəruri mühit yaradır.

2. Dissertasiya tədqiqatı zamanı iqtisadiyyatın diversifikasiyası istiqamətində həyata keçirilmiş çoxsaylı araşdırmalar və irəli sürülmüş müxtəlif nəzəriyyələr nəzərdən keçirilmiş və onların diversifikasiya siyasətinin həyata keçirilməsində əhəmiyyəti müəyyən edilmişdir. İqtisadi diversifikasiya istiqamətində mövcud olan nəzəri bazanın təhlili göstərmişdir ki, diversifikasiya çoxşaxəli anlayış olmaqla iqtisadiyyatın müxtəlif istiqamətləri üzrə diversifikasiyanı özündə ehtiva edir və maliyyə kanallarının artması üçün şərait yaradır.
3. Tədqiqatla sübut olunmuşdur ki, ölkələrin iqtisadi sistemləri fərqli olduğundan iqtisadi diversifikasiya istiqamətində bütün ölkələrdə uğurlu ola biləcək ümumi yanaşma mövcud deyil və heç də həmişə diversifikasiya siyasəti arzuolunan nəticələrin əldə edilməsinə və maliyyə səmərəliliyinin yüksəldilməsinə imkan yaratmır. Buna görə də iqtisadi diversifikasiya siyasətinin dünya təcrübəsinin öyrənilməsi zərurət təşkil edir.
4. Tədqiqat işində son illərdə Azərbaycanda iqtisadiyyatın diversifikasiyası istiqamətində həyata keçirilmiş islahatlar nəzərdən keçirilmiş və onların diversifikasiyanın maliyyə səmərəliliyi baxımından təsir imkanları təhlil edilmişdir. Bu məqsədlə iqtisadiyyatın hərtərəfli inkişaf etməsinə və bunun üçün müxtəlif sektorlarda və ümumi iqtisadiyyatda həyata keçirilməsi zəruri olan tədbirlərə yönəlmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası, "Strateji Yol Xəritələri" təhlil edilmiş və bu sənədlərdə müəyyən edilmiş hədəf və prioritetlərin iqtisadiyyatın diversifikasiyasının maliyyə səmərəliliyi baxımından əhəmiyyəti qiymətləndirilmişdir.
5. İqtisadiyyatın diversifikasiyasının müasir vəziyyətdə maliyyə səmərəliliyinin təhlil edilməsi məqsədilə tədqiqat işində bir sıra iqtisadi göstəricilər və istiqamətlər nəzərdən keçirilmişdir. Müəyyən edilmişdir ki, iqtisadi diversifikasiyanın yüksəlməsi özünü ən çox Ümumi Daxili Məhsulun tərkibində göstərmişdir. Son illərdə ÜDM-də qeyri-neft sektorunun payı sürətlə artaraq maliyyə təhlükəsizliyini yüksəltmişdir.

Bununla yanaşı müəyyən edilmişdir ki, neft sektoruna aid olan mədənçıxarma sənayesinin də payı son illərdə azalmış və qeyri-neft sektorunda yaradılan Ümumi Daxili Məhsulun diversifikasiyasının məqbul səviyyəsi əldə edilmişdir. Bu da qeyri neft sektoru məhsullarının ixracının artmasına və çoxşaxəli olmasına imkan yaratmaqla maliyyə səmərəliliyini yüksəltmişdir.

6. Tədqiqat zamanı iqtisadiyyatın diversifikasiyasının və onun maliyyə səmərəliliyinin qiymətləndirilməsi vasitəsilə müəyyən edilmişdir ki, iqtisadiyyatın diversifikasiyası və onun maliyyə səmərəliliyinin yüksəldilməsi istiqamətində atılmış addımlar və həyata keçirilmiş islahatlar müsbət nəticə versə də iqtisadiyyatın müxtəlif istiqamətləri və göstəriciləri üzrə fərqli nəticələr əldə edilmişdir.
7. Dünya ölkələrinin təcrübəsinin əhəmiyyətinin əsaslandırılması ilə sübut olunmuşdur ki, dünya təcrübəsinin Azərbaycanın diversifikasiya siyasətində nəzərə alınması və gələcəkdə tətbiq edilməsi diversifikasiyanın maliyyə səmərəliliyinin daha da yüksəlməsinə imkan yarada bilər.
8. Tədqiqatda diversifikasiya prosesinin sürətinin artırılması üçün tərəfimizdən diversifikasiyanın və onun maliyyə səmərəliliyinin yüksəldilməsi istiqamətləri müəyyən edilmişdir. Bu istiqamətlərə ÜTT-yə üzvlüyün əldə edilməsi, yeni bazarlara çıxışın əldə olunması, yenidən ixrac, maliyyə əlçatanlığının yüksəldilməsi, maliyyə və banklararası bazarların inkişaf etdirilməsi və işğaldan azad edilmiş ərazilərdəki ehtiyatlardan istifadə aiddir.

**Dissertasiya işinin mövzusu ilə bağlı aşağıdakı məqalələr və tezislər dərc edilmişdir:**


1. “Maliyyə təhlükəsizliyi və onun müasir vəziyyəti” Azərbaycan Respublikası Vergilər Nazirliyinin “Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu” adlı Elmi praktiki konfransı. Şamaxı şəhəri, 5 iyun 2015-ci il, səh 151-152
2. “Azərbaycan Respublikasının regionlarında sənayenin inkişafı” Azərbaycan Respublikası Təhsil Nazirliyinin Bakı Biznes Universiteti. Ümummilli lider H.Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Dünya iqtisadiyyatı və Azərbaycanda turizmin inkişaf istiqamətləri mövzusunda beynəlxalq-elmi-praktiki konfrans, Bakı-2016, səh 322-326

3. Azərbaycan Respublikasının bank sistemində tətbiq edilmiş antiböhran mexanizmləri. Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji xəbərləri, 2016, №44, səh 89-94
4. Azərbaycan sənayesinin müasir inkişaf səviyyəsi və diversifikasiyası. AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, 2017-ci il, №5, səh 81-86.
5. Новые приоритеты стратегической деятельности банковского сектора в Азербайджане. XII Международная научно-практическая конференция по теме «Государственное регулирование экономики и повышение эффективности деятельности субъектов хозяйствование Сборник научных статей, 13-14 апреля 2017 года, г.Минск, с 153-155
6. Azərbaycanda sənayenin diversifikasiyasının müasir problemləri. AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, 2018-1, №5, səh 59-64
7. Значение диверсификации экономики и ее роль в экономическом развитии. Международный научно-практический журнал «Экономика Держава», №5, 2018, г.Киев, с 78-82
8. İqtisadiyyatın diversifikasiyasının dünya təcrübəsi. AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, 2018-ci il, №1, s.59-64
9. İqtisadiyyatın diversifikasiya səviyyəsinin və onun maliyyə səmərəliliyinin yüksəldilməsi istiqamətləri. Maliyyə və uçot jurnalı 2018-ci il, №10, s.43-48
10. “Способы увеличения эффективности экономической диверсификации в Азербайджане”. Internauka. Сборник статей по материалам XXXI международной научно-практической конференции. Вопросы управления и экономики: современное состояние актуальных прблем. Москва:2020, №1(29), стр.87-92
11. Azərbaycanda iqtisadi diversifikasiyanın maliyyə səmərəliliyinin qiymətləndirilməsi. AR Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti. “İqtisadi inkişafın Naxçıvan modeli və mühasibat uçotunun problemləri” mövzusunda elmi konfransın materialları. Naxçıvan: 2020, səh.11-15.
12. İqtisadi diversifikasiyanın prioritet istiqamətləri. AR Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti. “Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu” mövzusunda Respublika elmi konfransının materialları. Naxçıvan: 2020, səh.90-94

Müdafiə “22” dekabr 2021-ci il tarixdə saat 14:00 Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED.2.10 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: Az 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6.

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları www.unec.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “22” noyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.10.2021
Kağızın formatı: 60x84 1/16.
Sifariş 05/11  Tiraj: 100.
Həcmi 1 ç.v. (49889 işarə)

*"AA – Poliqraf" istehsalat-kommersiya birliyində*
*hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*
*Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809*